**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İNSAN KAPİTALI AZƏRBAYCANDA SOSİAL İNKİŞAFIN ƏSAS AMİLİ KİMİ

İxtisas: 6307.01 Sosial dəyişiklik və inkişaf

Elm sahəsi: Sosiologiya

İddiaçı: **Lamiyə Bədrəddin qızı Bağırlı**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2021**

Dissertasiya işi Azərbaycan Turizm və Menecment Universitetinin "Sosial iş" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Fəlsəfə elmləri doktoru, professor
**Zaur Siyavuş oğlu Bağırov**

Rəsmi opponentlər: Fəlsəfə elmləri doktoru, professor
**Əli Seyidabbas oğlu Abasov**

Sosiologiya üzrə fəlsəfə doktoru
**Bədəl Əsədulla oğlu Əhmədov**

Sosiologiya üzrə fəlsəfə doktoru
**Anar Hübbət oğlu Fərmayılov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən BED 3.02 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: Sosiologiya üzrə elmlər doktoru, professor
**Hüseyn Tapdıq oğlu Qaraşov**

Dissertasiya şurasının elmi katibi: Fəlsəfə elmləri doktoru
**Ziba Bahadur qızı Ağayeva**

Elmi seminarın sədri: Fəlsəfə elmləri doktoru
**Füzuli Məhəmməd oğlu Qurbanov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** İnsan kapitalı problematikası son illərdə iqtisadi nəzəriyyələrin ən çox tədqiq olunan mövzularından birinə çevrilmişdir. Bu problemin tədqiqinə olan maraq gün gündən artmaqdadır. İqtisadi inkişaf meyarı olan insan kapitalının əhəmiyyətinin artmasına baxmayaraq onun inkişafı baxımından elan olunmuş prioritetlərin yerinə yetirilməsində müəyyən çətiniklər də yaranır ki, bunlar da həmin prioritetlərə zamanın tələblərinə uygun olaraq yenidən baxınması zərurətini yaradırdı. Əlbəttə ki, bütün bu proseslər yeni nəzəri yanaşmalar və mövcud tarixi təcrübənin sintezi nəticəsində baş verirdi.

İnformasiya cəmiyyətinə keçid bəşər sivilizasiyasının yaşam mühitinin bütün sferalarında olduğu kimi iqtisadi sferada da mühim transformasiyaların baş verməsinə səbəb olmuşdur. Cəmiyyətdə baş verən iqtisadi transformasiyalar iqtisadi inkişaf dinamikasını şərtləndirən və o cümlədən iqtisadi münasibətlər sisteminin əsas predmetini təşkil edən amillərinin mahiyyətinin dəyişməsinə səbəb olmuşdur. İnformasiya iqtisadi münasibətlərin əsas predmetinə çevrilmiş və ənənəvi əmtəə formalarını əvəz etmişdir. İqtisadi inkişafın əsas amili hesab olunan fiziki kapital və maddi aktivlər öz yerini qeyri maddi kapitala vermişdir. Bilik və təhsil iqtisadi ukladın ən mühim amili statusunu almış, gəlirlərin əldə edilməsinin əsas şərtinə çevrilmişdir. Nəticədə bilik iqtisadiyyatı məfhumu müasir iqtisadi nəzəriyyələrin əsas tədqiqat mövzusunu təşkil etmişdir. Bilik hər zaman sosial, iqtisadi tərəqqinin əsas bünövrəsində durmuşdur. Müasir iqtisadi münasibətlər sistemində bilik rəqabət şəraitində mütləq qalibiyyətin əsas şərtlərindən biri olmuşdur.

Qloballaşan dünyada biliklərə əsaslanan iqtisadi sistemin qurulması başlıca strateji məqsədə çevrilmişdir. İqtisadiyyatın birbaşa subyektləri ilə yanaşı dövlət də bu strateji istiqamətdə aktiv iştirakçı rolunu oynamaqdadır.

Bilik və elmin iqisadi tərəqqinin özəyini təşkil etməsi haqqında fikirlərin aksioma çevrilməsi elmi tədqiqatları bu biliyin əsas daşıyıcısı və iqtisadi proseslərin əsas iştirakçısı olan insanın öyrənilməsinə yönləndirməyə stimullaşdırır. İqtisad elmində bu istiqamətdə tədqiqatlar XX əsrin 60-70-ci illərində ortaya çıxmağa başlayır və elmə “insan kapitalı” anlayışının gətirilməsinə səbəb olur.

Danılmaz faktdır ki, iqtisadi tərəqqinin katalizatoru kimi bilik və elmi potensialı özündə birləşdirən insan kapitalı milli iqtisadiyyatların rəqabət qabiliyyətinin formalaşdırılmasına xidmət edən amildir. Bu insan kapitalının strateji status daşımasına dəlalət edir.

İstənilən ölkədə insan kapitalının yetişdirilməsi onun struktur elementlərinin inkilafına yaradılmış şəritlə bağlıdır. Bu isə hər şeydən öncə elmin, təhsilin, ümumiyyətlə insan amilinə ayrılan diqqətin səviyyəsi deməkdir. İnkişaf etmiş ölkələri istər iqtisadi sferada, istər elmi texniki inkişafın səviyyəsi baxımından öna görə yüksək göstəricilər əldə etmişdir ki, məhz təhsilin inkişafına daim diqqət yetirir və kifayət qədər yatırım edir. Müasir qlobal dünyada müxtəlif ölkələrdə elmi tutumlu iqtisadiyyatın inkişafı, elmi-texniki və sosial tərəqqi getdikcə daha çox milli təhsil sisteminin keyfiyyət göstəricilərindən, elmi kadr potensialının durumundan, islahatlar şəraitində iqtisadi sistemdə baş verən transformasiyaları idarə edən keyfiyyətli menecerlərin sayından asılı olur. Bütün bunlar vəhdət halında bu və ya digər ölkədə insan kapitalının durumunu əks etdirir. Yuxarıda qeyd edilənlər insan kapitalı məfhumunun yeni kateqoriya kimi tədqiqini aktual edir.

İnsan kapitalı dünyada rəqabət qabiliyyətli hər bir milli iqtisadi sistemin zəruri elementi hesab edilir. Bu bütün dünya ölkələri üçün xarakterik xüsusiyyət Azərbaycan üçün də önəmli bir məsələdir.

30 ilə yaxındır ki, liberal iqtisadi prinsiplərə əsaslanaraq milli iqtisadi sistemini quran Azərbaycan infomasiya cəmiyyətinə keçid astanasında durmuşdur. Bir sıra mühim səbəblərə görə Azərbaycan dünya iqtisadiyyatı üçün olduqca önəmli bir faktora çevrilməkdədir. Bu faktorlardan biri ölkənin yerləşdiyi coğrafi areal baxımından mühim logistika mərkəzi olması və tranzit imkanlarının genişliyidir. Digr önəmli amil Azərbaycanın təbii enerji resursları və bu resursların dünya ölkələri üçün strateji ehtiyat rolunu oynamasıdır. Qeyd edilən bu iki amil Azərbaycan iqtisadiyyatının inkişafına daim təkan verən qüvvətli gəlir mənbəyidir. Bununla belə ölkədə qurulmuş olan güclü idarəetmə sistemi milli iqtisadiyyatın müxtəlif risklərdən qorunması məsələsini ön plana çəkərək dünya iqtisadi sistemi üçün önəm daşıyan digər amillərin də formalaşdırılmasına üstünlük verir. Belə şəraitdə Azərbaycan üçün insan kapitalı amilinin əhəmiyyəti ortaya çıxır.

Həqiqətən insan kapitalı ehtiyatlarının formalaşdırılması və bu sahədə ölkə potensialının gücləndirilməsi Azərbaycan üçün strateji bir məsələdir. İnsan kapitalını Azərbaycan üçün önəmli edən bir sıra məqamlar var ki, onları qeyd edilməlidir.

Qloballaşan dünya iqtisadiyyatında istənilən milli iqtisadi sistemin yaşamı və inkişafı ona qoyulan sərmayələrin həcmindən asılıdır. Qabaqcıl ölkələrə transmilli şirkətlər tərəfindən sərmayə qoyuluşunun əsas şərtlərindən biri ölkədə bu və ya digər iqtisadi sferada çalışa bilən yüksək ixtisaslı işçi qüvvəsinin olmasıdır.

Milli iqtisadi sistemin inkişafı və inkişaf etmiş ölkələrin iqtisadi inkişaf səviyyəsinə uyğunlaşması iqtisadi mühitdə çoxvektorluluğun olmasını ehtiva edir. Başqa sözlə konkret olaraq hansısa məhsulların istehsalına, yaxud xidmət sferasının inkişafına, sırf xammal satışı və ixracına əsaslanaraq iqtisadi tərəqqidən danışmaq olmaz. Çoxvektorluluq isə bir daha real mütəxəsis potensialının güclü olmasını tələb edir. Bu mənada bir daha insan kapitalı potensialının gücləndirilməsinə ehtiyac yaranır. Bildiyimiz kimi Azərbaycanda əhalinin böyük əksəriyyəti savadlı sayılır. Eyni zamanda o da faktdır ki, ölkə iqtisadiyyatı enerji resurslarının satışı və xidmət sferasının genişləndirilməsinə əsaslanır. Digər şəxalərin reallaşdırılması güclün insan kapitalı potensialının formalaşdırılmasını zərurətə çevirir.

İnsan kapitalı təkcə iqtisadi deyil, eyni zamanda strateji siyasi və sosial bir amildir. İnsan kapitalının ixracı ölkənin beynəlxalq nüfuzunun güclənməsinə xidmət edir. Belə ki, insankapitalının ixracı ölkənin digər ölkələrdə təmsilçilik, diaspora imkanlarını genişləndirmiş olur. Bildiyimiz kimi bu gün Azərbaycanda buna böyük ehtiyac var.

İnsan kapitalı dövlət idarəçilik sisteminin kadr potensialının davamlılığının da mühim şərtlərindən biridir. Hər bir ölkədə olduğu kimi Azərbaycanda ölkədə gedən iqtisadi, siyasi və sosial islahatlar fonunda güclü kadr potensialının olmasına ehtiyac duyulur.

Yuxarıda qeyd edilənlər Azərbyacanda insan kapitalının yetişdirilməsi və bu sahədə potensialın gücləndirilməsinizəruri edir və Azərbaycanda hökümət bunu dərk edir. Bu gün inamla söyləmək olar ki, başda ölkə başçısı İlham Əliyev olmaqla dövlət idarəetmə aparatı insan kapitalı potensialının inkişafında çox maraqlıdır. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya azərbaycanlılarının III qurultayında ölkədə neft və digər enerji resurslarından sonra ikinci strateji məhsul insan kapitalıdır. Başqa sözlə ölkədə qara qızılın insan amili ilə əvəzlənməsi prosesi gedir.

üclü iqtisadiyyatın qarantı rolunda çıxış edən insan kapitalı ehtiyatlarının formalaşdırılması və inkiaf etdrilməsi müasir Azərbaycanda dövlət üçün strateji hədəfə çevrilmişdir. Bu hədəfə çatmaqdan ötrü ölkə miqyasında olduqca mhim layihələr və proqramlar reallaşdırılmaqdadır. Bu layihələr cəmiyyətin sosial, iqtisadi, mədəni sferalarını əhatə edir. Son illərdə insan kapitalının formnalaşmasına qoyulan sərmayənin sezmək üçün Azərbaycanda hökümət tərəfindən təhsilin, səhiyyənin elmin inkiafına xərclənən vəsaitləri nəzərdən keçirmək kifayət edir. Eyni zamanda Azərbaycanda insanların maddi rifah halının, güzəranının, ekoloji mühitin yaxşılaşdırılması siyasət də yürüdülür ki, bu da insan kapitalının keyfiyyətinin

artmasına xidmə edir. Bütün bunlar ölkəmizdə insan kapitalının yetişməsi prosesinə tədqiqatçı marağının öyrənilməsini zəruri edir.

**Problemin işlənmə dərəcəsi.** Müasir dövrdə iqtisadi inkişafın və tərəqqinin əsas göstəricisi kimi təqdim edilən insan kapitalının formalaşmasının və inkişafının fərqli aspektləri ilə bağlı yerli və xarici elmi tədqiqatlar aparılmışdır.

İqtisadi münasibətlərdə insan amilinin öyrənilməsi sahəsində ilk tədqiqatlar XX əsrin 50-60-cı illərində T.Şults[1] və Q.Bekkerin[2] , az sonra isə D.Mintser[3], B.Çizvik[4] , Y.Ben-Porat[5] , L.Turounun[6] əsərlərində meydana çıxan insan kapitalı haqqında konseptual baxışlarla bağlıdır. Bu nəzəriyyə iqdisad elmində insanyönümlü problemlərin uzunmüddətli tədqiqi nəticəsində meydana çıxmışdır.

Aparılan tədqiqatların bir qismi insan kapitalının yetişdirilməsində ilk öncə insanın əldə etdiyi biliklərin, elmin və təhsilin rolunu qabardır. S.L. Bryu, K.R. Makkonel kimi iqtisadçı mütəxəssislər məhz beləlarindədndir. Onlar hesab edir ki, insan kapitalı dedikdə istehsal prosesində əmək məhsuldarlığının artmasına xidmət edən insana məxsus bilik, təcrübə və peşə hazırlığına yatırımlar nəzərdə tutulmalıdır[7].

İnsan kapitalı nəzəriyyəsinin müəlliflərindən olan Xeyns hesab edir ki, fiziki kapitalı insan kapitalından fərqləndirən əsas xüsusiyyət onların mübadilə oluna bilməsidir. Fiziki kapitala istehsal prosesinə cəlb edilən istehsal avadanlıqları, istehsal müəssisəslərinin yerləşdiyi binalar, pul vəsaitləri aid ola bilər. İnsan kapitalı isə özündə istehsal prosesində dolayı və bilavasitə iştirak edən insanın bilik və təcrübəsini, peşə biliklərini, müəyyən

---

[1] Schultz, T. W. Investment in Human Capital: the Role of Education and of Research / T. W. Schultz. – N.Y. The Press, 1971; Schultz, T.W. The Economic Value of Education / T. W. Scultz. – N.Y. : Columbia University Press, 1963

[2] Беккер, Г. С. Человеческое поведение: экономический подход. Избранные труды по экономической теории / Г. С. Беккер. – М. : ГУ-ВШЭ, 2003.с. 50-154

[3] Mincer, J. Investment in Human Capital and Personal Income Distribution / J. Mincer // Journal of Political Economy. – 1958. – Vol. 66. – No. 4. – P. 281–302.; Mincer, J. Schooling, Experience and Earnings / J. Mincer. – N.Y.: National Bureau of Economic Research, 1974.

[4] Chiswick, B. R. Income Inequality: Regional Analysis within a Human Capital Framework / B. R. Chiswick. – New York: National Bureau of Economic Research, 1974.

[5] Ben Porath, Y. The Production of Human Capital and the Lifecycle of Earnings / Y. Ben Porath. – New York, 1970.

[6] Thurow, L. C. Investment in Human Capital / L. C. Thurow. – Belmont, 1970.

[7]Макконнелл К.Р., Брю С.Л. Экономикс: принципы, проблемы и политика. Пер. с 14-го англ. изд. - М.: 2003. – XXXVI, 972 с.

vərdişləri birləşdirir[8].

R. M. Nureev insan kapitalını "insanın məcmu məhsuldar gücü, qüvvəsi kimi, iqtisadi nemətlərin istehsalında istifadə etdiyi bilik, bacarıq və vərdişləri motivasiya və enerji kimi müəyyənləşdirmişdir"..[9]

Sosial-iqtisadi inkişafda intellektual iqtisadiyyatın rolunun öyrənilməsinə müasir iqtisadi artım nəzəriyyəsinin baniləri A.Qerşenkron[10] , S.Kuznets[11] , V.Rostou[12] böyük töhfə vermişlər.

İnsan kapitalına invsetisiya qoyuluşu və insvestisiyaların təsnifləşdirilməsi ilə bağlı C.Kendrikin[13] tədqiqatları xüsusi maraq doğurur.

S.A.Dyatlovun yanaşmasına görə "kapital qoyuluşu nəticəsində insanda formalaşan və yığılan (toplanan) ehtiyatlar: sağlamlıq, bacarıqlar, qabiliyyətlər, motivasiya hansı ki, məqsədəuyğun şəkildə bu və ya başqa sahələrdə cəmiyyətin sosial bərpasına, əmək məhuldarlığının artmasına və insanın gəlirinin artmasına yönəlir-bu insan kapitalıdır".[14]

Rusiyalı iqtisadçı A.F.Lıskova görə, insan kapitalının vacib xüsusiyyətlərindən biri onun dinamik olmasıdır. İnsan kapitalına müxtəlif vəziyyətlərdə istifadə edilən elementlər daxil edilir və bununla da fəaliyyətdə olan elementin dəyəri (qiyməti) azalır, artır və yaxud tamamilə aradan çıxır. Beləliklə insan kapitalını ifadə edən kəmiyyət dəyişir.[15]

Saymon Kuznets iqtisadi inkişaf prosesində insan kapitalının həlledici rolunu xüsusi qeyd edir. O, insan kapitalının az və kifayət qədər olmaması, onun aşağı keyfiyyətdə olması iqtisadiyyatın gələcək rəqabət qabiliyyətli

---

[8]Хейне П. Экономический образ мышления. - М.: Дело, 1993. – 706 с.

[9]Нуреев Р. М. Человеческий капитал и проблемы его развития в современной России // Общественные науки и современность. 2009. № 4. С. 5-20.

[10] Gerschenkron, A. Continuity in History and other Essays / A. Gerschenkron. – Cambridge (Mass.): The Belknap Press of Harvard University Press, 1968.; Gerschenkron, A. Economic Backwardness in Historical Perspective: A Book of Essays / A. Gerschenkron. – Cambridge (Mass.): The Belknap Press of Harvard University Press, 1962.; Gerschenkron, A. The Soviet Indices of Industrial Production / A. Gerschenkron // Review of Economics and Statistics. – 1947. – No. 29 (4). – P. 217-226.

[11] Kuznets, S. Modern Economic Growth: Rate, Structure, and Spread / S. Kuznets. – New Haven; London: Yale University Press, 1966.

[12] Ростоу, В.В. Стадии экономического роста / В. В. Ростоу. – Нью-Йорк: Издательство Фредерик Прегер, 1961.

[13]Кендрик Дж. Совокупный капитал США и его формирование: Пер. с англ. / Общ. ред. и предисл. [с. 5-23] А.И. Анчишкина. - Москва : Прогресс, 1978. - 275 с.

[14] Дятлов С.А. Теория человеческого капитала: учебное пособие. -СПб.: Изд-во СПбГУЭФ. 1996. – 138 с.

[15] Лысков А.Ф. Человеческий капитал: понятие и взаимосвязь с другими категориями // Менеджмент в России и за рубежом. – № 6. – 2004. – С. 3–11.

texnoloji sisteminin yaradılmasına imkan vermədiyini qeyd etmişdir.[16]

İnsan kapitalı insanların iqtisadi və sosial fayda verən biliyini, qabiliyyətini və qazandığı vərdişlərini və digər keyfiyyətlərini təcəssüm etdirir. Bilik, bacarıq, səriştə və vərdiş əsasən öyrənmə və əmək təcrübəsi ilə qazanılır, həm də təbii qabiliyyətlərlə müəyyən olunur. İnsan kapitalı haqqında fikirlər əvvəllər də mövcud olmuşdur. İngilis iqtisadçısı A. Marşala görə təhsil, tanınmadan ölə biləcək çox sayda insanalra öz potensial qabiliyyətlərini açmağa imkan yaratmışdir. Hər hansı bir sənaye kəşfinin iqtisadi faydası isə böyük bir şəhərin təhsili üzrə xərcləri ödəməyə tamamilə kifayət edir.[17]

Azərbaycanda insan kapitalının yetişdirilməsi və inkişafının əsas xüsusiyyətləri, insan kapitalının edilməsi, sosial inkişaf prosesində insan kapitalının əhəmiyyətinin müəyyən edilməsi baxımından Ulu öndər Heydər Əliyevin, Ölkə başçısı İlham Əliyevin çixiş və məruzələri, onların imzaladığı normativ hüquqi aktlar səeəncam və fərmanlar, strategiya və proqramlar iqtisadiyyatın müxtəlif istiqamətlərinin inkişafı ilə bağlı iş planlarının öyrənilməsi xüsusi əhəmiyyət daşıyır [18] . Həmçinin insan kapitalının

---

[16]Kuznets, S.. Dr. Schumpeter's System Presented and Criticized / draft of an MA essay submitted at Columbia University. – 1924. – 107 p. – (Место хранения: Harvard University Archives: HUGFP 88.45, Box 1, 1923-24, 107 pp.).

[17]Маршалл А. Принципы политической экономии [Текст]: пер. с англ. / А. Маршалл. Т.1. – М.: Прогресс, 1993. – 415 с.

[18] "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı". № 2090. Bakı şəhəri, 16 aprel 2007-ci il; "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı şəhəri, 29 dekabr 2012-ci il; "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. № 13. Bakı şəhəri, 24 oktyabr 2013-cü il; 2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə dövlət proqramı. Bakı şəhəri, 10 iyun 2008-ci il; 2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmişdir.; Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı (2005-2007-ci illər). № 353. Bakı şəhəri, 21 avqust 2004-cü il; Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təsis edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Fərmanı. № 160. Bakı şəhəri, 7 may 2014-cü il; Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. № 526. Bakı şəhəri, 21 oktyabr 2009-cu il; Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. № 168. Bakı şəhəri, 15 iyun 1999-cu il; "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. https://www.president.az/files/future_az.pdf; Avropa İnsan Hüquqları Konvensiyası. https://www.echr.coe.int/Documents/Convention_AZE.pdf; Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası.

Azərbaycanın gələcək inkişafında əhəmiyyəti baxımından akademik Ramiz Mehdiyevin [19] də fikirləri ciddi maraq doğurur. İnsan kapitalı və əqli mülkiyyət sahəsində professor K.İmanov [20] tədqiqat aparmışdır. İnsan kapitalının yetişdirilməsinə mədəniyyətin rolu ilə bağlı professor F.Məmmədovun [21] tədqiqatları mövcuddur. İnsan kapitalının formalaşmasında təhsilin rolu ilə bağlı M.Mahmudovun [22] "Dünyada təhsil sistemləri" adlı monoqrafiyasında maraqlı fikirlər irəli sürülmüşdür. İsmayılova E. Qloballaşma dövründə zəka axını: fəlsəfi-psixoloji təhlil. Monoqrafiyasında insan kapitalı ilə bağlı təqiqat aparmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini insan kapitalı məfhumu təşkil edir. Dissertasiya işinin predmetini Azərbaycanda insan kapitalının yetişdirilməsi və istifadəsinin əsas xüsusiyyətlərinin, sosial inkişafın əsas istiqamətləri kontekstində insan kapitalı ilə qarşılıqlı əlaqəsi və təsirinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Azərbaycanın sosial inkişafının hərəkətverici qüvvəsi olan insan kapitalının yetişdirilməsinin və əsas xüsusiyyətlərinin öyrənilməsi, onlar arasındakı qarşılıqlı təmas və təsiri əks etdirən qanunauyğunluqların aşkara çıxarılması müəyyən edilmişdir. Bu məqsədin realizəsi məqsədi ilə bir sıra tədqiqat vəzifələri müəyyən edilmişdir:

-İnsan kapitalı məfhumunun metodoloji analizini aparmaq;

-İnsan kapitalı məfhumunun başlıca əlamətlərini tədqiq etmək;

-Korporativ insan kapitalının izahını vermək;

-İnsan kapitalının əsasını təşkil edən insan bilik və bacarıqlarının xarakterini açıqlamaq;

-Qloballaşma şəraitində sosial inkişafın əsas xüsusiyyətlərini açıb göstərmək;

-Azərbaycanda iqtisadi inkişaf və tərəqqinin təmin olunmasında insan kapitalının rolunu müəyyən etmək;

-Sosial inkişafla insan kapitalı arasındakı təmasın formalarını aşkara çıxarmaq;

- Azərbaycanda insan kapitalının yetişdirilməsi və inkişafının əsas

---

https://www.president.az/articles/9779; "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. http://edu.gov.az/az/page/72/302

[19] Ramiz Mehdiyev "2015-ci ildən sonrakı dövrdə Azərbaycanın inkişafının əsasını insan kapitalı təşkil edəcək". https://azxeber.com/az/ramiz-mehdiyev-2015-ci-ilden-sonraki-dvrde-azerbaycanin-inkisafinin-esasini-insan-kapitali-teskil-edecek/

[20] İmanov K. Əqli mülkiyyət və insan kapitalı. Bakı, 2016. – 24 səh.

[21] Məmmədov F. Kulturologiya, mədəniyyət, sivilizasiya. Bakı, "OL" MMC, 2016. – 260 səh.

[22]Mahmudov M. Dünyada təhsil sistemləri. Monoqrafiya. Bakı, Mütərcim, 2014. – 480 səh.

xüsusiyyətlərini tədqiq etmək.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dünyada insan kapitalı sahəsində mövcud olan nəzəri müddəalar və konsepsiyalar, həmçinin xarici və yerli tədqiqatlarda irəli sürülmüş elmi müddəalar tədqiatın nəzəri və metodoloji bazasını təşkil edir.

Həmçinin dissertasiya işinin tədqiq olunmasında dialektik metodun prinsiplərinə müraciət edilmişdir ki, bunlara inkişaf, ziddiyyət, qarşılıqlı əlaqə, determinizm, sistemlilik prinsiplərini şamil etmək olar. Tədqiqat mövzusunun çoxşəxəliliyinə əsasən burada ümumelmi metodlardan – sistemli, struktur-funksional, xüsusi elmi metodlardan – empirik, funksional, kazual, o cümlədən müqayisəli, tarixi, məntiqi təhlil, mücərrədləşdirmə və ekspert qiymətləndirmələri kimi metodlara müraciət edilmişdir. Mövzunun rəngarəngliyi tədqiqat zamanı bəzən fənlərarası metodlara da mürəciət edilməsinə zərurət yaratmışdır.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Tədqiqatın empirik bazasını ölkədə sosial inkişaf və insan kapitalının hüquqi tənzimlənməsi mexanizmlərini əks etdirən Azərbaycan Respublikasının qanunvericilik akları, dövlət proqramları, hazırki durumunu göstərən rəsmi dövlət orqanlarının statistik məlumatları, informasiya bazasını isə dövri mətbuat və internet resursları təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycanda sosial inkişaf prosesində insan kapitalı məfhumunun rolunun araşdırılması tədqiqatın elmi yeniliyidir. Ümumiyyətlə, tədqiqatın elmi yeniliyini aşağıdakı müddəalarla izah etmək olar:

1. Müəyyən nəzəri və konseptual yanaşmaların təhlili əsasında insan kapitalını digər kapital növlərindən fərqləndirən əsas cəhətlər açılıb göstərilmişdir.
2. Elmi nəzəriyyələrdə mövcud olan yanaşmalar əsasında insan kapitalının yetişdirilməsi mərhələlərinin ardıcıllığı göstərilmişdir.
3. İnsan kapitalının növlərinin bir-birindən fərqləndirilməsi və onların əsas cəhətlərinin müqayisəsi aparılmışdır.
4. Müasir dövrdə cəmiyyətin sosial inkişafının əsas xüsusiyyətlərinin tədqiqi nəticəsində insan kapitalının inkişafına təsir edən başlıca istiqamətləri müəyyən edilmişdir.
5. Azərbaycan cəmiyyətinin perspektiv inkişafı kontekstində sosial inkişaf və onun əsas katalizatoru olan insan kapitalının qarşılıqlı asılılığı sübuta yetirilmişdir.

**Dissertasiya işinin nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya tədqiqi zamanıelmi və nəzəri müddəalar gələcəkdə aparılacaq elmi

tədqiqatlarda və cəmiyyətin sosial inkişaf proseslərinin tənzimlənməsi inkişaf sahəsində mövcud olan elmi yanaşmaların təhlillərinin ali məktəblərdə müvafiq istiqamət üzrə mövcud olan ixtisaslarda tədris prosesində istifadəsi mümkündür.

**İşin aprobasiyası və tətbiqi.** Dissertasiya işi Azərbaycan Turizm və Menecment Universitetinin "Sosial iş" kafedrasında yerinə yetirilmişdir. Dissertasiya işinin əsas nəzəri və tətbiqi nəticələri haqqında respublika və beynəlxalq səviyyəli elmi konfranslarda məruzələr edilmiş, həmin çıxışların mətinləri elmi konfrans materiallarında nəşr olunmuşdur. Dissertasiya işinin məzmunu, əsas müddəaları, əldə olunan nəticələri müəllifin ölkə daxilində və xaricdəki elmi məcmuələrdə çap edilən məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, iki fəsil, altı yarımfəsil, nəticə, əlavə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın strukturunda titul hissə və mündəricat 2 səhifə - (2435 şərti şarə), giriş – 8 səhifə (15716 şərti işarə), 1.1. – 17 səhifə (35204 şərti işarə); 1.2. – 18 səhifə (35442 şərti işarə); 1.3. – 24 səhifə (50452 şərti işarə); 2.1. – 23 səhifə (44164 şərti işarə); 2.2. – 20 səhifə (33993 şərti işarə); 2.3. – 19 səhifə (31052 şərti işarə); nəticə - 9 səhifə (18163 şərti işarə); istifadə edilmiş ədəbiyyat siyahısı – 8 səhifə (11888 şərti işarə); əlavə - 2 səhifə (1935 şərti işarə). Dissertasiya işinin ümumi həcmi 144 səhifə, 278201 işarədən ibarədir.

Dissertasiyanın ümumi mətn hissəsi (şəkillər, cədvəllər, qrafiklər, əlavələr və ədəbiyyat siyahısı istisna edilməklə) isə 126 səhifə kompyuter yazısı və ya 243107 işarə təşkil edir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

İşin **Giriş** hissəsində dissertasiya mövzusunun aktuallığı əsaslandırılır, mövzunun işlənmə dərəcəsi göstərilir, obyekt və predmeti təyin edilir, məqsəd və vəzifələri müəyyənləşdirilir, nəzəri-metodoloji bazası əsasları, mənbəşünaslıq bazası, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti vurğulanır. Girişdə həmçinin işin strukturu göstərilir.

İşin birinci fəsli **"Milli və korporativ insan kapitalının cəmiyyətin inkişafına təsiri haqqında nəzəriyyələr"** adlanır. Bu fəsil **"İnsan kapitalı anlayışı, onun mahiyyəti və strukturu"** adlı yarımfəsillə başlayır. Terminin mahiyyəti tədqiq olunarkən nəticə çıxarılır ki, pul şəklində ifadə olunmuş kapitala qiymətli kağızlar, istehsal avadanlıqları, maddi vəsaitləri aid edilir. İnsan kapitalı isə maddi kapitalla bərabər gəlir gətirmə qabiliyyətinə malik

olan insani keyfiyyətlər kimi qiymətləndirilir. İnsan kapitalının ölçü meyarları araşdırılaraq belə bir nəticəyə gəlinir ki, bu tip kapital iqtisadi proseslərin iştirakçısı olan individlərin biliklərinə, təcrübələrinə, səriştələrinə, professionallıq dərəcələrinə çəkilən xərclərlə ölçülə bilər.

Maddi gəlirlərin əldə olunma vasitəsi kimi kapital iki cür təsnifləndirilir. İlkin təsnifata görə kapitalın maddi, qeyri maddi və sosial formaları var:

- Maddi kapital dedikdə birbaşa istirakı olmadan nemətlər axını formalaşdırıla bilən gəlirlərin məcmusudur.
- Qeyri-maddi kapital istehsal ptrosesinə cəlb edilən insanların son nəticədə gəlirlərin axınına təsir göstərən fərdi keyfiyyətləridir.
- Sosial kapital individin digər insanlarla saxladığı və onun əldə etdiyi nemətlər axınına təsir göstərən əlaqələr sistemi aid edilir.

Maddi və qeyri-maddi kapitalın təsnifatının ikinci mexanizmi əmtəələrin qiymətinin əsas yanaşmaların: utilitarist, dəyər, maddi və zaman təhlilinə əsaslanır.

Araşdırma nətiəsində belə nəticə çıxarılır ki, təqribən XX əsrin 60 və 70-ci illərində amerikan iqtisadçı alimləri T. Şults, C. Kendrik və başqaları tərəfindən yaradılan bilik iqtisadiyyatı, insanın iqtisadi proseslərdə iştirakına həsr edilmiş insan kapitalına dair nəzəri baxışlar son nəticədə Q.Bekkerin tədqiqatları ilə müasir formasını almışdır. Təqribən 50-ci illərin ortalarından insan kapitalına yeni münasibət bəsləyən iqtisadi nəzəriyyələr meydana gəlməyə başladı. Daha effektiv inkişaf mexanizmləri axtarışında olan bu nəzəriyyələrdə insan kapitalı keyfiyyət göstəricisi əldə edirdi. İqtisadi mühit çevrəisndə radikal sosial iqtisadi transformasiyalar istehsal prosesinə və əmək münasibətlərini yeni baxış rakursu müəyyənləşdirirdi. Əməyin kapitala çevrilməsini şərtləndirən baxışlar insanın fərdi keyfiyyətlərini öyrənə biləcək kateqoriyanın ortaya çıxmasını zərurətə çevririrdi ki, məhz insan kapitalı sırf bu cür kateqoriyaya çevrildi.

Görünən bu idi ki, qloballaşmanın müasir mərhələsində keyfiyyətli insan kapitalına malik olan dövlətlər digər dövlətlərlə müqayisədə bir çox üstünlüklərə malikdirlər. Yüksək keyfiyyətli deyəndə nəzərdə tutulurdu ki, dövlətdə əhalinin yüksək intellektual səviyyəsi və yüksək peşəkar kadr potensialı var və bu dövlətin iqtisadi sisteminin dünya bazarında rəqabətə davamlılığının güclənmədinə xidmət edir. Dolayı formada müasir qloballaşma dövründə dövlətin iqtisadi artımı insan kapitalının həcmi və keyfiyyəti ilə əlaqəlidir. İnsan kapitalı son illərdə tədqiqat sferası kimi böyük maraq doğurur.

İnsan kapitalı kapitalın digər formalarından bir sıra prinsipial

məsələlərə görə fərqlənir. Onun daşıyıcısı olan individdən ayrı mövcud ola bilməz. İstehsal proseslərində gəlir gətirən kapitala çevrilən insan prosesdə iştirak edərək biliklərini, səriştəsini və təcrübəsini tətbiq edir. Burada kapital daşıyıcısının əməyi, səriştəsi və bilikləri istehsal prosesinin effektivliyinin artmasına müsbət təsir edir. İnsanın kapital anlamına gələn xüsusiyyətləri mübadilə edilə bilməz. Başqa sözlə insanın bilik və iş səriştəsi gəlir gətirə bilsə də başqa individə ötürülə bilməz. İstehsal prosesinin ayrılmaz elementi olan insanın bu prosesdə iştirakına ayrılmış müddəti insan kapitalının ömrünü müəyyənləşdirir. İnsan kapitalının aktual olduğu müddət insanın əmək qabiliyyətini qoruyub saxlama müddəti ilə ölçülür.

İnsan kapitalının ölçü meyarları olduqca bəsidir. İnsan kapitalı istehsalatın effektivliyinin artmasına xidmət edən təcrübə, səriştə və bacarıqların formalaşmasına xərclənmiş maddi vəsaitlərin həcmi ilə ölçülür. Bu vəsaitləri adətən insan kapitalının sərmayələşməsi kimi nəzərdən keçirirlər.

İnsan kapitalının nəzəriyyə və praktikası individual, korporativ və milli olaraq bir-birindən fərqləndirilir.

İndividual insan kapitalı -individin elə xüsusi və ixtisas bilikləri ehtiyyatı və peşəkar bacarıqlarının toplusudur ki, bu qabiliyyəti olmayan insanlarla müqayisədə ona əlavə gəlir gətirir, fərdə maddi rifahının yüksəldiləməsi üçün digər imkanlar yaradır, onlar olmadan bunu həyata kecirmək mümkün olmur.

Korporativ insan kapitalı - individual insan keyfiyyətləri, xüsusi menecment və qabaqcıl texnologiya, kompüter və informasiya texnologiyaları daxil olmaqla, firmanın rəqabətqabililiyyətliliyini yüksəldən vasitələrlə müqayisədə firma tərəfindən toplanılan ixtisas və xüsusi hazırlıqların toplusudur.

Hər bir ölkəyə məxsus makro səviyyədə insan kapitalı – bu innovativ (kreativ) əmək resursları, aparıcı mütəxəssislər, toplanmış biliklər, toplanmış yeniliklər məcmusunun milli sərvətdə, yüksək texnologiyalarda payı, innovativ sistem, sosial və intellektual kapital, həyat səviyyəsi, qloballaşma şəraitində dünya bazarında ölkənin və dövlətin rəqabətqabililiyyətliliyini, innovativ iqtisadiyyatı təmin edən inkişaf məcmusunun bir hissəsidir.

İqtisadiyyatın mürəkkəb elementi kimi nəzərdən keçirilən insan kapitalı struktur etibarı ilə çox ölçülü meyardır. Bu struktur əslində mürəkkəb olmaqla yanaşı zamana və mühit şərtlərinə uyğun olaraq sürətlə transofrmasiya olunur. Bir çox mütəxəssislər insan kapitalının strukturunu müxtəlif səviyyələr üzrə öyrənməyə üstünlük verirlər. müxtəlif səviyyələrdə öyrənməyə üstün verirlər. Burada söhbət mikro (fərd, ailə, firma) və makro

(şirkət, korporasiya, region və milli iqtisadiyyat) səviyyədə insan kapitalından gedir. Bu iki səviyyədən başqa insan kapitalı səviyyələrin özündə belə müxtəlif elementlərə bölünür. Bəzən bu elementləri insan kapitalı fondları adlandırırlar.Belə ki, bnu elementlər istehsal prosesində mütəmadi olaraq istifadə edilə bilən ehtiyat formalaşdırır. İstifadə zamanı bu fondları passiv kapitala deyil xüsusi kativlərə çevrilir.

İnsan kapitalı bütövlükdə kapitalın tərkib hissəsi olub özü özlüyündə mürəkkəb struktura malikdir. Onun müxtəlif elementləri var. Ümumilikdə bu strukturla bağlı ortaq ümumi fikir olmasa da elə elementlər var ki, onların qəbulu aksiomatikdir.

İnsan kapitalının ümumi strukturunda bir neçə component var: individual, kolektiv və ictimai. Belə bir bölgü insan kapitalını bir insan (mikrosəviyyə), müsətqil bir müəssisə yaxud müəssisələr qrupu (mozosəviyyə) və dövlət səviyyəsində (makrosəviyyə) təsnifləndirməyə imkan verir.

İndividuallıq prizmasından götürdükdə insan kapitalı səhiyyə, təhsil, mədəniyyət, əmək, intellektual və təşkilati-müəssisə kapitalını özündə birləşdirir və insanın ayrılmaz keyfiyyəti olaraq təzahür edir.

Səhiyyə kapitalı insanın səhhətinin normal səviyyədə formalaşmasına, saxlanılmasına və yaxşılaşdırılmasına qoyulan investisiya formasında özünü göstərir ki, bu da onun əmək qabiliyyətini qoruyub saxlamasına xidmət edir.

Reallıqda insanın səhhətinə qoyulan investisiya xəstəliklərin və ölüm halının azalmasına xidmət edir. İnsanın əmək qabiliyyətli həyatının uzanmasına gətirib çıxarır və insan kapitalının mövcudluğunun vaxtını artırır. Ümumdünya səhiyyə təşkilatı sağlamlığı insanın tam fiziki və sosial ideal halı kimi izah edir. Rifah

halı əqlin elə bir halıdır ki, bu halda tələbatlar, bacarıqlar və gözlənitlər ilə ətraf mühitin təqdim etdiyi imkanlar arasında harmoniyanın qəbul edir.

İnsanın sağlamlıq durumu onun təbii kapitalı olub bir hissəsi irsi xarakter daşıyır. Digər hissəsi cəmiyyətin və insanın özünün xərclərindən formalaşır.

İnsanın sağlamlıq durumunun yaxşılaşması mövcud həyat səviyyəsi, əmək haqqının yüksəlməsi, sosial qütbləşmənin aşağı düşməsi və potensialın reproduktivlik ilə bağlıdır.

İnsanın iqtisadiyyatın istənilən sferasında fəaliyyət qabiliyyəti, tuta biləcəyi vəzifə müəyyən səviyyədə onun sağlamlığı ilə bağlıdır. İnsanın yaşam boyu mövcud kapitalının aşınması baş verir. Sağlamlığa qoyulan investisiya bu aşınmanı ləngidə bilər.

Təhsil kapitalı öz növbəsində insan kapitalının mühim hissəsidir.

Təhsil İstehsal prosesinə cəlb edilən yüksək texnologiyalar ölkədə iqtisadi, mədəni və sosial inkişafın mühim şərtlərindən biridir. Bundan başqa, təhsil, ölkənin ümumi mədəni mühitinin inkişafına yardım edir, ayrılıqda ölkə vətəndaşları üçün sosial rifah, formalaşma və təkmilləşmə mexanizmi formasında təzahür edir. Yüksək texnologiyalar hər bir mütəxəssisdən ən azı 5-7 ilə çərçivəsində öz biliklərini təkmilləşdirməyi tələb edir. Bu onu göstərir ki, fasiləsiz təhsilin təşkil edilməsinə xüsusi ehtiyac var. Belə durumda insanın daim təhsilini artırmaqla bağlı motivasiyasını təşkil etməyə ehtiyac yaranır. Bu problemin həlli elm və texnoloji cəhətdən inkişafın sürətinə, həm yeni tipli iqtisadiyyatın formalaşmasına, həm də cəmiyyətin dayanıqlı inkişaf konsepsiyasının reallaşmasına təsir edir.

Ümumyyətlə götürdükdə insan kapitalı olduqca geniş bir məfhumdur. O özündə təkcə insanın sonradan əldə etdiyiyi biliklərini birləşdirmir. İstehsal prosesində uzunmüddətli gəlirlərin əldə edilməsinə yardım edən insan kapitalı adətən özündə insanlara məxsus anadangəlmə müsbət mənəvi keyfiyyətləri, istedadı, səriştəni, birləşdirə bilər. Ümumiyyətlə insan kapitalının struktur elementlərinə baxdıqda onun çox mürəkkəb olduğunu görə bilərik. İnsan kapitalının struktur elementlərinə insanın anadangəlmə keyfiyyətləri, sonradan əldə etdiyi bilikləri, dövlətin onun yetişməsinə xərclədiyi vəsaitləri, cəmiyyətdə insan olaraq yetişməsi üçün təminatına önəmli olan istehlak xərclərini, gündəlik yaşam üçün vəsaitləri aid etmək olar.

Birinci fəslin ikinci yarımfəsli artıq dediyimiz kimi **insan kapitalının mümkün idarəetmə formalarının tədqiqinə həsr edilmişdir**. Adı çəkilən yarımfəsildə başlıca diqqət insan kapitalının tərkib hissəsinə daxil olan qeyri-maddi ünsürlərin medyana gəlməsi prosesində investisiyalaşmanın, sərmayələşmənin rolunun tədqiqinə yönəldilmişdir. Bu mənada yarımfəsildə insan kapitalının investisiyalaşdırılması məsələsi dərindən tədqiq edilmişdir.

İnsanın istehsal prosesində özünün göstərən səriştə və bilikləri qoyulan invesitisiyanın konpensasiyası və qarşılığı gələcəkdə insanın gətirəcəyi gəlirlə ölçülür. İnsan kapitalının yetişməsinə qoyulan invesitisiya digər investisiya növlərindən bir qədər fərqlidir:

1. İnsan kapitalının yetişməsinə qoyulan sərmayə insanın əmək qabiliyyətinin müddətindən asılıdır. İnsanların və daha doğrusu iqtisadi prosesin istehsal iştirakçısı olan individin əmək qabiliyyətinin effektivliyi zaman baxımından fiziki olaraq məhdudur. Bu durumda invesitisiyanın qoyuluş vaxtı önəmlidir. Bununla belə keyfiyyətli və uzunmüddətli investisiyalar xeyir gətirir.

2. Sərfəlilik baxımından insan kapitalının sərmayələşməsi fiziki kapitaldan fərqli olaraq daha effektiv və uzumüddətli gəlir gətirə bilir.

3. İnsan kapitalının yetişməsinə çəkilən xərclər cəmiyyətin mədəniyyəti, menatliteti, tarixi və digər dəyərləri ilə bağlıdır.

4. İnsan kapitalının təşkiledici elementlərinin aşınması baş verir. Bu hər şeydən öncə insanın təbii qocalması səbəbindən baş verir. Eni zamanda qeyri-maddi aktivlərin aşınması prosesi gedir ki, bu da əldə edilən biliklərin köhnəlməsi anlamına gəlir. İnsan kapitalının əsas üstün xüsusiyyətlərindən biri ondadır ki, o investisiya qoyulmadan özünü yeniləyə bilir. İnsan kapitalının özəlliyi onun aktuallığı itirmə müddətinin digər kapital formalarına nisbətən daha uzun olmasıdır.

5. Fiziki kapitalın investisiya müddəti insan kapitalına nisbətən daha azdır. Misal üçün insan kapitalının təhsillə bağlı investisiyalaşma dövrü ən azı 12-20 il çəkir.

6. Məsrəflər müxtəlif olduğu üçün, insan kapitalının sərmayələşməsi müxtəlif formalarda olduğu üçün cəmiyyətin həyatının müxtəlif sferalarında fərqli formada üzə çıxır.

İnsan kapitalı müxtəlif elementlər baxımından fərqli həcmdə sərmayə tələb edir. Günümüzdə insan kapitalına çəkilən msrəflərlə bağlı bir neçə təsnifləndirmə var. Bunlardan biri insan kapitalı haqqında nəzəri müddəaların yaradıcılarından hesab olunan Q. Bekkerə məxsusdur. Onun təsnifatına görə insan kapitalının sərmayələşməsi aşağıdakı xərcləri labüd edir:

1. Təhsilə çəkilən xərclər
2. Sağlamlığın qorunmasına çəkilən xərclər
3. İş axtarışı
4. Uşaqların tərbiyyəsi
5. Gəlir axtarışı

Əslində insan kapitalının investisiyalaşmasının tiplogiyası daha genişdir. Fikrimizcə bunlar sırasında ən mühim olanı təhsil və səhiyyəyə çəkilən xərclərdir. Bu iki sfera insan kapitalının artırılması üçün önəmlidir. İnsanların bilik və təcrübələri, dünyagörüşləri, istehsal prosesində təzahür edən səriştələri əsasən daimi özünütəhsillə formalaşır. Təhsilə qoyulan investisiya təhsil almaq istəyənlərlə və bu sferaya investisiya qoymaq istəyənləri birləşdirir. XX əsrin 70 və 80-ci illərində praktiki olaraq bütün dünyada təhsilin keyfiyyətcə yeni səviyyəyə keçidi baş verir. Təhsil alma hüququnun liberallaşması təhsilalanların sayında artımın baş verməsinə gətirib çıxarır. Məhz ali təhsilli insanların sayının sürətlə artması başda dövlət olmaqla iqtisadi subyektlərin əmək bazarını formalaşdırma naminə insanların peşə təhsilinə sərmayə qoyuluşu ilə bağlı idi. İnsan kapitalının real gəlir mənbəyi olması fikrinin iqtisadi mühitdə dərk olunması sahibkarlarda məhz bu sferaya sərmayə qoymaq marağı formalaşdırdı. Sübut olundu ki, işçi

heyətin daha keyfiyyətli kontingentlə əvəz edilməsi deyil, mövcud olan işçilərin səriştəsinin artırılmasına çəkilən xərclər daha effektivdir.

İnsan kapitalının yetişdirilməsi təkcə insanların təhsilinə qoyulan sərmayə ilə bitmir. Eyni zamanda bu kapitalın ömrünün insanın təbii yaşam dövrü ilə məhdudlaşması onun sağlamlığı məsələsini də aktual edir. İnsan kapitalının formalaşdırılması eyni zamanda səhiyyə sektoruna investisiya qoyuluşunu zəruri edir. Keyfiyyətli səhiyyə insanların həyat sürmə müddətini və əmək qabiliyyətlilik müddətini artıra bilər.

İnsan kapitalının mobilliyi olduqca önəmli məsələdir və bu sferaya investisiya qoyuluşunun əhəmiyyəti xüsusən vurğulanmalıdır. Adətən işçi qüvvəsinin mobilliyi dedikdə miqrasiya prosesi nəzərdə tutulur. Miqrasiya yaxud mobillik inkişafın ümumi iqtisadi qanunauyğunluqları, işçinin özünün fikri və iqtisadiyyatın struktur dəyişkənliyi ilə bağlıdır. Əmək resurslarının mobilliyi istər sosial, istər iqtisadi baxımdan proqressiv hesab olunur. Başqa sözlə mobillik işçinin daim dəyişən şəraitə uyğunlaşmasıdır. Burada iqtisadi sferada dəyişikliklər başa düşülür. Adətən adaptasiya olunan işçi iki məqsəd güdür: Gəlirləri artırmaq və bazarda sosial ədalətin və bərabərliyin gözlənilməsi.

İnsan kapitalına xərclənən vəsaitlərin biri informasiya ilə bağlıdır. Burada söhbət iqtisadi cəhətdən səmərəli informasiyadan gedir. İnformasiya insan tərəfindən gündəlik hıyatında istifadə edilən önəmli resurslardan biridir. İnformasiya siyasi, iqtisadi, sosial xarakter daşıya bilər və ən əsası idarəetmə qərarlarının qəbulu prosesində ən vaib faktor kimi ortaya çıxır. Bu baxımdan informasiya obyektiv, tam və aktual olmalıdır. Daim yenilənən informasiya olmadan effektiv insan kapitalı formalaşdırmaq olmaz. Məhz belə informasiya iqtisadi artımın və insan inkişafının kökündə durur.

İnsan kapitalı ehtiyatlarının güclənməsinə qoyulan investisiyaların əhəmiyyətli bir hissəsi elmi tədqiqatlara və bu sahədə çalışanların maddi rifahının, sosial təminatına ayrılır. Çünki elmin inkişafı nəticəsində intellektual innovasiyalar, daha sonra istehsal texnologiyaları və yeni istehlak üsulları yaranır.

İnsan kapitalının formalaşmasına sərmayə qoyan subyektlərin tərkibi də müxtəlifdir. Bu subyektlərin tipologiyasına nəzər salaq: yatırımı dövlət (hökumət), qeyri-hökumət əsaslı ictimai fondlar və təşkilatlar, regionlar, təhsil müəssisələri, müəssisələr, ailə və sıravi vətəndaşlar həyata keçirə bilər.

Dövlət insan kapitalının meydana gəlməsi, formalaşması və inkişafında başlıca maraqlı subyekt kimi çıxış edir. Bunun üçün xüsusi dövlət siyasəti reallaşdırılır. Dövlət bu baxımdan həm stimulverici, həm də icbari tədbirlər istifadə edir və bu tədbirlər ümumdövlət insan kapitalının artırılması

məqsədi daşıyır. Dövlət vəsaitləri hesabına təhsil, səhiyyə, sosial proqramlar, mədəni və idman tədbirləri maliyyələşdirilir. Bundan əlavə, buraya icbari əsasda həyata keçirilən bütün profilaktik tədbirlər aiddir.

Qeyri-hökumət mənbələri (ictimai fondlar, müəssisələrin resursları) əsasən dövlətin stimullaşdırıcı mexanizmlərindən asılı olur ki, bu mexanizmlər də vergi imtiyazları (bu, müvafiq sahəyə fərdi investisiyaların qoyulmasına şərait yaradır), həmçinin, insan kapitalının ayrı-ayrı sahələrində qiymət tənzimlənməsi (büdcə müəssisələrində təhsil, tibbi xidmət və sığortanın qiyməti, əməyin ödənilməsinin minimal ölçüsü, kompensasiyalar və s.) hesabına formalaşdırılır. İnsan kapitalının yetişdirilməsinin ilkin mərhələlərində investisiya qoyuluşunun əsas mənbəyi kimi ailə və fərd özü çıxış edir. Daha sonra qismən formalaşmış kapitala yeni mənbə - şirkət qoşulur.

Birinci fəslin üçüncü yarımfəsli **"Qloballaşma şəraitində insan kapitalı sosial inkişafın prioritet istiqaməti kimi"** adını daşıyır. Yarımfəsildə qeyd olunur ki, yüksək intellektə və işgüzar kompitensiyaya malik işçi qüvvəsinin yetişdirilməsi uğrunda rəqabət qloballaşan dünyada geniş və dərin bir formada özünü büruzə verir və insanlar dəyərli kapital kimi yeniliyin və inkişafın əsas bazasına çevrilir. Yüksək ixtisaslı kadrların çevikliyinin artması, biliyin mübadiləsi prosesi müasir İKT-nin tətbiqinin genişlənməsi sayəsində xeyli intensivləşmişdir. Bütün dünyada intellectual biliklərə sahib olan işçi qüvvəsinin axtarı. əma çəxan transmilli şirkətlərin yüksək fəallığı müşahidə edilməkdədir. Onlar ən yeni biliklərin mübadiləsinin aparılmasını təmin etməkdən ötrü kommunikasiya texnologiyalarının genişlənməsini stimullaşdıran tədbirlərə əl atır, bu sahəyə küllü miqdarda vəsait ayırır.

Yüksək keyfiyyətli insan kapitalı insanların daha sağlam ətraf mühitdə yaşamasını da ehtiva edir. Burada təbii ki ekoloji mühitdən söhbət gedir. Ümumiyyətlə hesab edilir ki, bugünki dünya iqtisadiyyatı əslində bilik iqtisadiyyatı statusunu daşıyaraq bəşəriyyətin ekoloji problemlərinin nəzərə alınması müstəvisində qurulmuşdur. Qeyd edilməlidir ki, insan kapitalı problem müasir qlobalistlərin də nəzərindən qaçmamışdır. Onların əksəriyyət bəşəriyyətin gələcəyini, insanın fəaliyyət sahələri arasında tarazlıın təmin edilməsini məhz keyfiyyətli insan amilində görürlər. Belə tendensiya ilə çıxış edənlərdən biri məşhur "Roma klubu" nun üzvü olan italiyalı alim A. Peççeidir.

İnsan kapitalının formalaşması, onun potensialının güclənməsi inkişaf durumundan asılı olmadan dünyanın istənilən ölkəsi üçün zəruridir. Baxmayaraq ki, belə ölkələrin hər birində insan kapitalı ehtiyatlarının

əhəmiyyəti eyni cür qəbul edilmir. Buna baxmayaraq dövlətin iqtisadi sisteminin irəliləyişinin əsas şərti kimi insan kapitalı qlobal miqyasda rəqabət qabiliyyətinin güclənməsinə xidmət edir.

İkinci fəsil "**Milli insan kapitalı strukturunun dinamikası Azərbaycanda sosial inkişafın əsası kimi**" adlanır. İkinci fəslin **"İnsan kapitalının inkişafına təsir edən amillər"** adlı birinci yarımfəslində günümüzdə insan kapitalının strukturunda başverən dəyişikliklər və bu dəyişikliklərin Azərbaycanda sosial inkişaf proseslərinin əsası kimi oynadığı rol, həmçinin ümumilikdə insan kapitalı ehtiyatlarının yetişdirilmə mexanizmlərinin ortaya çıxarılması ilə bağlı tədqiqat aparılmışdır.

Yarımfəsildə bu kapitalın özünün əsasını təşkil edən faktorların təhlili aparılır. İstənilən dövlətin istər sosial, istər iqtisadi sistemində əldə edilən nəaliyyətlər insan kapitalı ehtiyatlarının formalaşmasında mühim rola malikdir. Bu nailiyyətlər insanların ümumi rifahının yüksəlməsinə xidmət edir.

Respublikamız savadlı kadrlar, yenilənmiş texnologiya, uzun illərin təcrübəsi və digər amillər sayəsində geniş elmi potensiala sahibdir. Kadr potensialının müasir zamanın tələblərinə cavab verməsi, demokratik idarəetmədə elektron hökümətin qurulması və funksional idarəetmənin tətbiqi kimi siyasi reformalar da mühüm üstünlüyə malikdir. Azərbaycanda üçün yaxın illərdə keyfiyyətli kadr bazasının formalaşdırılması əsas prioritetlərdəndir. Dönəmin iqtisadi sistemlərində insan kapitalı amilinin kütləviliyi getdikcə artmaqdadır.

İnsan kapitalı aşağıdakı komponentlərdən ibarətdir: səhiyyə kapitalı, istehsalata hazırlıq kapitalı, təhsil kapitalı, elmi kapital, mədəni kapital.

İnsan kapitalı həmçinin digər ölkələrdən gələn kapital axını hesabına da formalaşdırıla bilər. Artıq qeyd etdiyimiz kimi insan kapitalının tərkibində bir sıra mürəkkəb elementlər var. Bu amil şəbəkə kimi bütün iqtisadi sistemi əhatə edir, onların funksionallığını təmin edir.

İnsan kapitalı amilinin tərkibinə investisiyalar və onların intellektual əməyin tətbiqindən əldə edilən qazanc, eləcə də bu kapitalın effektivliyini təmin edən fəaliyyət mühitinə yönəldilən investisiyalar da daxildir.

İnsan kapitalının effektiv gəlir mənbəyinə çevrilməsi üçün təhlükəsizlik, ekologiya, mənzil şəraiti, əlverişli həyat mühiti lazımdır. Əks tədqirdə yaxşı mütəxəssislər yaxşı yaşayış və rahat təhlükəsiz fəaliyyətin təmin edildiyi ölkələrə mühacirət etməyə və orada işləməyə başlayacaqlar. Aşağı keyfiyyətli yaşayış və təhlükəsizlik şəraitində insanların beyni səmərəli işləyə bilmir. İnformasiya cəmiyyətinin və bilik iqtisadiyyatının mahiyyətini, əsasını qanunun təntənəsi, insan kapitalı ehtiyatlarının səviyyəsi, insanların

yüksək rifah halı durur.

İstər təhsil, istər elm insan kapitalı ehtiyatlarının güclənməsində fundamental rol oynayır. Ad çəkilən amillər İnsan kapitalı ətrafında formalaşan nəzəriyyələrə görə, təhsilə qoyulan sərmayənin əsas məqsədi istehsal prosesində əmək məhsuldarlığını artırmaqdır.

İnnovasiya iqtisadiyyatı aşağıdakı əlamətlərdən asılıdır:

- İnsan kapitalının ehtiyatlarının səviyyəsi;
- İnsan kapitalının potensialına qoyulan yüksək investisiyalar;
- Qanunun aliliyi;
- Vətəndaşlar və biznesin təhlükəsizliyinin yüksək təminatı;
- Keyfiyyətli yaşayış səviyyəsi;
- Sosial və dəqiq elmlərin yüksək inkişaf səviyyəsi;
- Ölkədə güclü texnoloji inkişafın intellektual mərkəzlərinin-texnoparkların mövcudluğu;
- Yeni iqtisadiyyat sektorunun əhəmiyyətli payı;
- İnsan biliyinin tətbiqinin yüksək səmərəliliyi;
- Dövlət tərəfindən dəstəklənən səmərəli innovasiya sistemlərinin mövcudluğu;
- Cəlbedici investisiya mühitinin və yüksəkinvestisiya reytinqinin mövcudluğu;
- Əlverişli sahibkarlıq mühiti;
- Diversifikasiyalaşdırılmış iqtisadiyyat və yüksək sənaye;
- Dünya texnoloji bazarına çıxarılan kreativ əsaslı məhsullar;
- İqtisadiyyatın və dövlətin effektiv idarə edilməsi, innovativ menecment sisteminin mövcudluğu;
- Aşağı səviyyəli inflyasiya.

Cəmiyyətin iqtisadi inkişafı. Bəzi mənbələrdə iqtisadiyyatın inkişafı və tərəqqisi bir-birlərinin əvəzləyicisi kimi işlədilir, hətta bu anlayışlara yaxın tərəqqi, irəliləyiş kimi terminlər də bir-birinin sinonimi formasında tətbiq edilir. Artım mövcud olanın kəmiyyət ölçüsü baxımından çoxalması, sayının artması, daha böyük miqyas alması mənasında işlədilir, inkişaf isə sadəcə kəmiyyət ölçüsü baxımından deyil, keyfiyyət yönümlü böyümə, irəliləyiş, tərəqqi əldə etməkdir. İnsan inkişafının davamlılığı və dayanıqlılığı insanların öz biliklərini artırması ilə bağlıdır. Başqa bir baxış bucağına görə iqtisadi tərəqqi keyfiyyət baxımından müqayisə oluna biləcək mühüm bir anlayışdır. Bu yanaşmanın tərəfdarları iqtisadi inkişaf göstəricisi olaraq ÜDM-un əhali sayına nisbətini qəbul edirlər. Üçüncü bir yanaşma tərəfdarları, iqtisadi inkişafın göstəriciləri kimi kəmiyyəti yaxud keyfiyyəti deyil, iqtisadi sistemlərin daxili elementlərində, onların digər iqtisadiyyatın strukturunda,

struktur elementlərin keyfiyyət halında baş verən irəliləyişləri tərəqqi və inkişaf kimi nəzərdən keçirirlər.

İqtisadi ədəbiyyatlarda bu anlayışlara aid üç fərqli baxış mövcuddur. Birinci baxışa görə iqtisadi tərəqqi dövlət üçün ölçülə bilən iqtisadi faktorlarının müəyyən müqaisə edilən dövr ərzində kəmiyyət baxımından dəyişməsidir.

İstənilən dövlətin iqtisadi sisteminə sərmayə qoyuluşu müxtəlif məqsədlər daşıya bilər. Bura iqtisadi tərəqqiyə nail olma, ölkə vətəndaşlarının rifah halının yüksəldilməsi, iqtisadi strukturun tərkibinin dəyişməsi, gəlirliliyin artması və s. aiddir. Sərmayə yatırımları son nəticədə kapitalın formalaşdırılmasına təsir edir ki, bu iqtisadiyyatda istehsal potensialının güclənməsi ilə nəticələnir.

Müasir dünya ölkələrində və o cümlədən Azərbaycanda insan kapitalının iqtisadi inkişafın əsas amilinə çevrilməsi ilə ölkədə bu istiqamətdə hökümətin fəaliyyəti strateji məsələyə çevirmiş olur. Bu gün qtisadi cəhətdən güclü olanölkələrdə insan kapitalının potensialı nəinki iqtisadi inkişafın əsas katalizatoru rolunu oynayır, ümumiyyətlə iqtisadi durumun əsas indikatoruna çevrilir. Qeyd edilənlərin əyani sübutu kimi Avrasiya insan inkişafı Fondunun Azərbaycanla bağlı hesabatlarını misal gətirmək olar. Nüfuzlu beynəlxalq təşkilatın hesablamalarına əsasən dünya ölkələrinin iqtisadiyyatında artımın 3/2 hissəsi insan kapitalı hesabına əldə olunur. Bu mənada Azərbaycan da dünya birliyi ölkələrindən geri qalmır. Azərbaycanda dövlət tərəfindən yürüdülən iqtisadi siyasətin mərkəzində insan faktoru durur. Azərbaycan dünya iqtisadiyyatında əsasən strateji əhəmiyyətli enerji məhsulları ixracı ilə məşğul olan ölkədən insan kapitalı ixracatçısına çevrilməkdədir. Ölkədə bunun üçün dövlət insanların rifahının yüksəldilməsi məsələsini ön plana çıxarmışdır. Azərbaycanda insan kapitalının strateji sfera olmasının əyani sübutu ölkə iqtisadiyyatından əldə edilən gəlirlərin böyük bir qisminin sosial (təhsil, səhiyyə, elm) infrastrukturun gəcləndirilməsinə sərf edilməsidir. Azərbaycanda məhz dövlət insan kapitalı potensialının gücləndirilməsinin əsas investorudur.

2013-ci ildə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" bu sahədə qəbul edilmiş olduqca mühim normativ hüquqi sənədlərdən biridir. Adı çəkilən normativ hüquqi sənəddə qeyd edilir ki, insan kapitalı ehtiyatları ölkəmiz üçün xüsusən aktualdır. Yüksək keyfiyyətli təhsl sisteminin qurulması, savadlı, müasir düyagörüşünə malik vətəndaş kontingentinin yetişdirilməsi Azərbaycanın qlobal dünya iqtisadiyyatında rəqabət qabiliyyətli iqtisadi sistem qurmasını təmin edə bilər.

Ölkəmizdə istər elmin, istər təhsilin, istər səhiyyənin inkişafına dövlət

dəstəyi ölkə iqtisadiyyatının sürətli inkişafına təkan vermiş, cəmiyyətin həyatının ən müxtəlif sosial və iqtisadi sferalarında uğurla fəaliyyət göstərə biləcək intellektual kadr potensialının formalaşmasına kömək etmişdir. Qeyd edilənlər Azərbaycanda istər sosial, istər iqtisadi sferada dayanıqlı inkişafa şərait yaratmışdır. Ölkə başçısının vurğuladığı kimi Azərbaycanda sürətlə qara qızılın insan kapitalı ilə əvəzlənməsi prosesi gedir. Azərbaycanın təbii resurs ehtiyatlarının ixracından əldə etdiyi gəlirlərin əhəmiyyətli hissəsi məhz bu sferaya yönləndirilmişdir.

İkinci fəslin ikinci yarımfəsli “**Azərbaycanda insan kapitalının formalaşmasına ayrılan yatırımlar”** adlanır.

Qloballaşmanın ölkəmizdə insan kapitalının yetişdirilməsi, inkişaf etdirilməsi, onun potensialının gücləndirilməsi strateji məqsəd və hədəf status almışdır. Uzun illər ölkəmiz dünyaya xammal ixrac edən və iqtisadiyyatı enerji resurslarının satışı üzərində qurulan ölkələrdən olmuşdur. Təbii ki, müstəqilliyinin ilk onilliklərini yaşan dövlət üçün bu o qədər də nöqsanlı bir hal hesab edilmir. Müstəqil iqtisadi sisteminin əsasını məhz enerji resurslarının və digər xammalın satışı, ixracından gələn gəlirlər üzərində quran Azərbaycanda dövlətin əsas vəzifəsi ölkənin istər sosial, istər iqtisadi statusunu dünyanın inkişaf etmiş ölkələrinə yaxınlaşdırmaq olmuşdur. Bu mənada qeyd edilən sahələrdən əldə edilən gəlirlərin səmərəli sferalara yönləndirilməsi prosesi qurulmuşdur. Son 15 ildə ölkəmizdə iqtisadi sistemin modernləşməsi, müasirləşməsi, dünya bazarında rəqabətyönümlü formaya salınması məqsədi ilə dövlət tərəfindən yürüdülən iqtisadi kursun mərkəzində əsasən insan amili durmuşdur. Təsüdüfi deyil ki, ölkədə reallaşdırılan bütün iqtisadi proqramlarda başlıca vəzifə və hədəf vətəndaşın həyat keyfiyyətinin yüksəldilməsi olmuşdur. Qeyd edilənlər ölkəmizdə kifayət qədər güclü insan kapitalının yetişməsinə gətirib çıxarmışdır.

Müstəqilliyinin ilk onilliklərini yaşayan bir dövlət kimi Azərbaycanda iqtisadi sistemin liberal forması da ilkin quruculuq və inkişaf dövrünü yaşamaqdadır. Görünən odur ki, Azərbaycan iqtisadiyyatında liberal subyektlərin əksəriyyəti hələ ki, formalaşma mərhələsindədir. Bu mənada onları insan kapitalının yetişdirilməsi və inkişaf etdirilməsində stimullaşdırıcı subyekt rolunda nəzərdən keçirmək tezdir. Ölkəmizdə bu funksiyanı əsasən dövlət həyata keçirir. Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasəti kifayət qədər uğurlu hesab edirik. Bunu Azərbaycanda formalaşmış beynəlxalq rəqabətə davamlı işçi qüvvəsinin miqyası və dövlət tərəfindən insan kapitalının yetişməsinə çəkilən xərclərin həcminə əsasən söyləmək mümkündür. Dövlət Azərbaycanda insan kapitalının yetişdirilməsi və inkişafını cəmiyyətin həyatının təhsil, səhiyyə, ekoloji və s. sahələrinə çəkdiyi

xərclərlə həyata keçirir. 2020-ci ildə ölkəmizdə dövlət büdcəsindən elm sahələrinin inkişafına 187 mln, bütövlükdə təhsilə ayrılan vəsaitlər 3 mlrd, səhiyyə sferasına 1.7 mlrd manat, sosial müdafiyə sisteminə 3,2 mlrd manat, mədəniyyətin inkişafına 400 mln manat vəsait, ekoloji mühitin yaxşılaşdırılmasına 300 mly vəsait ayrılmışdır. Bütövlükdə ayrı-ayrı xərcləri götürsək dövlətin insan kapitalı potensialının qurulmasına xərcləri anlamında ölkə büdəcsinin xərclərinin 30% bu istiqamət üçün nəzərdə tutulmuşdur.

İkinci fəslin üçüncü yarımfəsli **"Azərbaycanda iqtisadi inkişaf və insan kapitalının qarşılıqlı təması və təsiri: müasir vəziyyət və perspektivlər"** adlanır. Bu yarımfəsildə Müasir Azərbaycanda insan kapitalının son durumu və inkişaf vektorlar, ölkənin müasir davamlı inkişafında insan potensialına söykənən yanaşma, insan kapitalı bazasının formalaşması baxımından dövlətin reallaşdırdığı zəruri tədbirlər tədqiq edilmişdir.

Birləşmiş Millətlər təşkilatı tərəfindən təqdim olunan "Minilliyin inkişaf məqsədləri" proqramına görə xalqların davamlı inkişafı müəyyən məqsədlərin güdülməsini ehtiva edir. Bu məqsədlərə görə insan kapitalının daim yenilənməsi əksər dünya ölkələri, o cümlədən Azərbaycan üçün prioritet məsələdir. Azərbaycanda təhsil və elmin inkişaf səviyyəsinin yüksəldilməsində Ulu Öndər Heydər Əliyevin xidməti danılmazdır. Ulu öndər bu işə hələ Sovetlər Birliyi dövründə başlamışdı. Belə ki, 60-cı illərin sonunda ölkəmizdə gənclərin xaricdə və əsasən müttəfiq respublikalarda sayı onlarla ölçülürdüsə, 80-ci illərdə bu rəqəm mini keçmişdi. Eyni siyasət bu gün də Azərbaycanda yürüdülməkdədir.

Çağdaş Azərbaycanda gənclərin ən müasir biliklərə yiyələnməsi, kadr potensialının müasir dünya stanartlarına uyğun ixtisas və səriştələrə sahib olması baxımından hökümət tərəfindən əhəmiyyətli proqramlar uğurla həyata keçirilmişdir. Bunlardan gənclərin xaricdə təhsilinin reallaşdırılması məsələsinə yönəlmiş olan 2007-2015-ci illəri əhatə edən dövlət proqramının, Azərbaycanda təhsis sisteminin və bilavasitə tədris prosesinin informasiyalaşmasını nəzərdə tutuan bir neçə proqramı missal göstərmək olar.

Son illərə qədər Azərbaycanda təhsilin humanitarlaşması tendensiyası daha çox sezilməkdə idi. Son illərdə isə bu tendensiya aradan qalxır və texniki elmlər sferasının sürətlə genişlənməsini müşahidə edirik. Bu ilk öncə iqtisadi sferada sürətlə artan rəngarəngliklə bağlıdır. Ötən illərdə Azərbaycanda iqtisadiyyatda xidmət sferasının üstünlüyünü müşahidə edirdiksə, günümüzdə durum xeyli dəyişmişdir. Qeyri-neft sektorunun inkişafı ölkəmizdə yeni sənaye sahələrinin, xüsusən istehsal sahələrinin

formalaşmasına gətirib çıxarmışdır. Yeni yaranan sahələr isə dünya standartlarına uyğun, zamanın tələbinə uyğun texniki biliklərə sahib olan yeni kadrların mövcudluğunu tələb edir.

Son iki ildə covid-19 pandemiyası bütün sferalarla yanaşı Azərbaycan təhsilini də çətin problemlərlə üz-üzə qoymuşdur. Tələbə şagird kontingentinin real tədris prosesindən uzaq düşməsi təhsil sferasında bir sıra transformasiyaların baş verməsinə səbəb olmuşdur. Bu transformasiyaların müsbət tərəfi ondadır ki, azərbaycanda təhsilin bütün sferalarında İKT və onların yaratdığı imkanlardan geniş istifadə olunmağa başlanmışdır. Distant təhsil tədris forması mümkün texnologiya kimi qəbul edilmiş, ölkədə distant təhsilllə bağlı ən yeni texnologiyalardan istifadəyə imkan verilmişdir. İntenetdən istifadə imkanı təkcə distant formada təhsil alma imkanı vermir. Eyni zamanda internet vasitəsilə yayımlanan informasiyanın etibarlılıq dərəcəsinin artmasına imkan verir. Təhsil alan vətəndaşların informasiya mübadilə mühiti genişlənmiş olur. Yeni distant texnologiyaların tətbiqi SCORM kimi beynəlxalq təhsil standartlarının istifadəsinə imkan veir. Yeni şəraitdə Azərbaycanın tədris sahəsində beynəlxalq transmilli şirkətləri ilə əlaqəsi də genişlənmiş olur. Belə ki, ölkədə tədris prosesinə Mikrosoft, Adobe, Cisco kimi şirkətlərin qabaqcıl təhsil texnologiyaları cəlb edilmiş olur. Bu məhsullardan istifadə imkanları yaradılır.

Ölkə vətəndaşlarının xarici universitetlərdə da şərait yaradılmışdır. Son illərdə bu tendensiya daha qabarıq formada özünü büruzə verir. Eyni zamanda xaricdə təhsil alan kadrların idarəetmə strukturlarında yerləşdirilməsi tendensiyası müşahidə olunur. Bütövlükdə isə Azərbaycan bu gün insan kapitalının formalaşdırılmasında dünyanın qabaqcıl ölkələrinin praktikasından geniş istifadə edir. Bu təcrübələrin yerli şəraitə uyğunlaşdırılması da ayrıca diqqət mərkəzində saxlanılır.

Nəticəİnsan kapitalının müasir iqtisadi münasibətlərin elementi kimi xarakterizə edilməsi və onun istehsal prosesində rolunu ümumiləşdirərək aşağıdakı kimi xarakterizə etmək olar:

1. İnsan kapitalının ortaya gəlməsi zamanı subyekt rolunda insan özü və eyni zamanda dəyər daşıyıcılarının keyfiyyətcə yüksəlməsinə sərmayə qoyan dövlət çıxış edə bilər.

2. İnsan kapitalının yetişməsinə yönləndirilən sərmayənin effektiv nəticə verməsində cəmiyyətin spesifikasını müəyyən edən tarixi irs, mövcud milli dəyərlər və dünyagörüşü, dövlətin yürütdüyü iqtisadi siyasət, cəmiyyətin idarə olunmasında istifadə edilən hüquqi-normativ baza, bütövlükdə insanların rifahı, təhsil və səhiyyənin durumu kimi olduqca önəmli faktorlar rol oynayır.

3. İnsan kapitalı özündə ilk öncə insanın sosioloji və antropoloji xüsusiyyətlərin birləşdirir. Bu kapitalın formalaşması və istifadəsi bütün insanların fiziki imkanlarından, bilik və səriştəsinin hcəmindən asılıdır.

4. İnsan kapitalının sürətli şəkildə pula çevrilməsi mümkün deyil. İnsan kapitalının mübadilə predmetinə çevrilməməsi onu likvidlik xüsusiyyətindən məhrum edir. Onun daşıyıcısı olan insanın bu kapitalı mübadilə prosesinə gətirməsi qeyri mümkündür.

5. İnsan kapitalının səviyyəsi istehsal prosesinin və ümumiyyətlə iqtisadi münasibətlərin subyektinin özünün iradəsi, iqtisadi mənafeyi, mədəni səviyyəsi, firma daxili mədəniyyət səviyyəsi, əməyin təşkili forması, əmək şəraiti, ekoloji durum və s. amillərlə müəyyən edilir;

6. İnsan inkişafı potensialının keyfiyyəti istənilən cəmiyyətdə sosial-iqtisadi tərəqqinin başlıca şərtlərindən biridir. Bu baxımdan insan kapitalı iqtisadi münasibətlərin başlıca katalizatoru kimi istehsal prosesinin ayrılmaz elementidir.

7. İnsan kapitalının daim aşınması və sıradan çıxması ehtimalı var. Aşınma sırf bioloji xarakter daşıyır. Cəmiyyətdə insan kapitalı potensialı sabit göstəricilərə malik olmur. O dəyişən dinamikaya malikdir, bəzən artır, bəzən isə azalır. Bu potensialın həcmi cəmiyyətdə insanların yaşam keyfiyyətinin durumundan, insan kapitalının yetişməsinə qoyulan sərmayənin həcmindən və istifadə səmərəliliyindən, insan kapitalının ortaya gəlmə prosesinin idarə edilməsi xüsusiyyətlərindən asılıdır.

8. İnsan kapitalının təkrarən formalaşdırılması ictimai proseslərin xarakteri ilə, hər bir cəmiyyətdə insanların həyatının müxtəlif (mədəni, iqtisadi, məişət, sosial, antropoloji) əlamətləri ilə şərtlənir.

9. İnsan kapitalı gələcək yaşayış keyfiyyətinin yüksəldilməsi, ümumi rifah halının yüksəldilməsi, daha yüksək gəlir əldə edilməsi, innovativ tərəqqi naminə formalaşdırılması zəruri olan bir amildir.

## Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı çap etdirdiyi məqalələrdə və tezislərdə öz əksini tapıb:

1.Qloballaşma şəraitində Azərbaycada sosial-iqtisadi inkişafın prioritet istiqamətləri//Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, "Heydər Əliyev irsi və Azərbaycan Respublikasında innovativ dövlət idarəçiliyi islahatları" mövzusunda elmi-praktiki konfransının materialları, Bakı-2017. səh. 208-214

2. Müasir qloballaşma şəraitində Azərbaycanda insan kapitalı və onun inkişaf problemləri//Aylıq ictimai-siyasi, elmi jurnal "Geostrategiya",№04.

(46) İYUL-AVQUST 2018. səh.15-18

3. İnsan kapitalı anlayışının genezisi//AMEA. "Gənc tədqiqatçı" jurnalı, cild 4. 2018. çapdadı

4. Bilik iqtisadiyyatın formalaşmasında insan kapitalının rolu // Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitunun "Dirçəliş-XXI əsr" jurnalı, №187. Çapdadı

5. İnsan kapiatlı sosial-iqtisadi inkişafın amili kimi//Aylıq ictimai-siyasi, elmi jurnal "Geostrategiya", №02. (44) MART-APREL. 2018. səh.30-33.

6. Человеческий капитал: происхождение теории // Национальный педагогический университет имени М.П. Драгоманова, ВГО Украинский академия наук, «Гилея: научный вестник», выпуск 132 (№5), Киев-2018. стр. 181-183.

7. Роль государственной образовательной политики в процессе формирования человеческого капитала// Экспериментальные и теоретические исследования в современной науке/ Сб. ст. по материалам L междунар. науч.-практ. конф. № 2 (45). Новосибирск: Изд. ООО «СибАК», 2020. 80 с. Səh.56-61.

8. Müasir Azərbaycanda davamlı inkişafın təmin olunmasında insan kapitalın rolu// Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycanda regional inkişafın idarə olunmasında müasir istiqamətlər mövzusunda Respublika elmi-praktik konfransının materialları Bakı- 22 Aprel 2019. Səh. 438-445.

9. Dynamics of human capital development in the Republic of Azerbaijan// ІНВЕСТИЦІЇ: Практика та досвід / Журнал засновано у січні 2002 року. Виходить 2 рази на місяць. ТОВ "ДКС Центр". № 4 лютий 2020 р. Səh. 48-52.

Dissertasiyanın müdafiəsi 18 05 2021 il tarixində saat 14:00 AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən BED 3.02 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ-1143, Hüseyn Cavid prospekti, 115, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 16 Aprel 2021 il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 06.04.2021

Kağızın formatı: A5

Həcm: 52652

Tiraj: 100